**Azərbaycan Respublikasının**
**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi**

Azərbaycan, Bakı, AZ 1000,
Üzeyir Hacıbəyov küçəsi – 40
Hökümət Evi, 4-cü alaqapı
Tel: (+99412) 493 79 62
Faks: (+99412) 493 58 72
www.scfwca.gov.az
E-mail:  office@scfwca.gov.az



# İNSAN ALVERİNİN QURBANI OLMA!

# İNSAN ALVERİNİN QURBANI OLMA!

**İnsan alveri müasir dövrün ən aktual problemlərindən biridir.**

Cinsi istismar, məcburi əmək, borca görə köləlik, uşaq əməyinin istismarı, "ev" köləliyi, dilənçilik, insanların silahlı qruplaşmalarda məcburi işlədilməsi, orqan transplantasiyası məqsədi ilə insan alveri – bütün bunlar eyni dəhşətli cinayətin fərqli növləridir.

İnsan alveri bir çox dünya ölkələrində baş verən qlobal hadisədir. İnsan alverinin qurbanları kişi, qadın və həm də uşaqlar ola bilər. İstismara ən çox məruz qalanlar isə gənc qadın və cavan qızlar olur ki, onlar da əsasən seksual istismara məruz qalırlar.

Ekspertlərin müşahidələrinə əsasən, qadınların insan alverinə məruz qalmasına əsas səbəblər – onların təhsil almasına, işə düzəlməsinə və özünə güvənməsinə mane olan olan savadsızlıq, yoxsulluq və gender bərabərsizliyi faktorlarıdır.

## İnsan alveri nədir?

İnsan alveri - zor tətbiq etmək hədəsi ilə və ya zor tətbiq etməklə, hədə - qorxu və ya digər məcburetmə vasitələri ilə, oğurlama, dələduzluq, aldatma yolu ilə, təsir imkanlarından və ya zəiflik vəziyyətindən sui-istifadə etməklə, yaxud digər şəxsə nəzarət edən şəxsin razılığının alınması üçün maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər verməklə və ya almaqla insanların istismar məqsədi ilə cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsi (uşağın istismar məqsədilə cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsi bu maddədə göstərilən üsullardan istifadə olunmasa da, insan alveri hesab edilir). ***(İnsan alverinə qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanunu maddə 1.0.1.)***

## “İstismar” deyərkən nə nəzərdə tutulur?

İnsanların istismarı məcburi əmək (xidmət), cinsi istismar, köləlik, köləliyə bənzər adətlər və onlardan irəli gələn asılılıq vəziyyəti, insan orqanlarının və toxumalarının qanunsuz çıxarılması, şəxs üzərində qanunsuz biotibbi tədqiqatların aparılması, qadının surroqat ana kimi istifadə edilməsi, qanunsuz, o cümlədən, cinayətkar fəaliyyətə cəlb etmə, habelə insanların digər formada istismar edilməsi (insan alveri 1.0.1 - ci maddədə göstərilən üsullarla törədildikdə, insan alveri qurbanının istismar olunmasına dair razılığı nəzərə alınmır). ***(İnsan alverinə qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanunu maddə 1.0.2.)***

## İnsan alveri necə baş verir?

İnsan alverində əsas məqamlardan biri qurbanın istismara cəlb edilməsidir. Qurbanları cəlb edən şəxslər onlara çoxlu yalan vədlər edirlər. Bəzi hallarda qurban nə işlə məşğul olacağını əvvəlcədən bilir, amma hansı şərtlərlə qarşılaşacağını təsəvvür etmir. İnsanları istismara cəlb edənlər tez-tez KİV-də yalançı elanlar verir, internetdə saxta saytlar açır, bəzən isə, saxta işə götürmə agentlikləri də yaradırlar. Onlar uşaq dayələri, xəstə baxıcısı, evlərə yardımçı, ofisiant, model, rəqqasə və s. işlər təklif edirlər. Verilən vədlər çox inandırıcı və cəzbedici olur. İnsanları belə işlərə cəlb edənlər, onların yaxın dost, rəfiqə və hətta qohumları da ola bilərlər .

## Qurban hansı təzyiqlərlə üzləşir ?

Qurban azad hərəkət edə bilmir, onu adətən, borc tələsinə salır və işləyərək, onun üçün ödənilən pulların əvəzini çıxmağa məcbur edirlər. Nəticədə, pulun miqdarı getdikcə artır, üstünə faizlər, qurbanın saxlanılması üçün xərclənən pullar, müxtəlif cərimələr gəlir. Qurbanın sənədləri alınır, sərbəst hərəkət etməsinə və yaxınları ilə ünsiyyət qurmasına qadağalar qoyulur.

İnsan alveri ilə məşğul olanlar öz əməllərinə nail olmaq üçün qurbanları döyür və hətta zorlayırlar. Onları fahişəlik və ya pornoqrafiya ilə məşğul olmağa məcbur edərək, yaxınlarınıza bu haqda məlumat verəcəyik deyib, şantaj edir, istədiklərini etmədikləri halda isə ailə üzvlərinin və yaxınlarının həyatında yaranacaq problemlərlə hədələyirlər.

## Xaricdə işə düzəlmə agentliklərinə müraciət etməmişdən öncə nələri bilmək lazımdır?

**Çox cazibədar, xaricdə yüksək maaş vəd edən iş təkliflərinə inanmayın!**

Xaricə getmədən əvvəl, əmin olmalısınız ki, sizə təklif olunan iş qanunidir! Həm agentliyin, həm də vasitəçi şirkətin Azərbaycan Respublikasının vətəndaşlarını xaricdə işə düzəltmək üçün icazəsi (lisenziya) olmalıdır. Həmçinin, bu agentliyin sizi işləməyə göndərdiyi ölkədəki şirkətlərlə də sazişləri olmalıdır.

**Müqavilə bağladığınız zaman ehtiyatlı olun!**

Agentliyə əvvəlcədən sizə, xaricdə hansı ixtisas və şərtlərlə iş axtaracağınızı bildirin. Bu şərtlər sizin müqavilədə mütləq yazılmalıdır. Müqavilə işə düzəldən şirkətin möhürü, hər ikinizin - sizin və müdirin imzası ilə təsdiq edilməlidir.

Müqavilədə, sizin agentliyə verdiyiniz pulun miqdarı və agentliyin öz vəzifələrini yerinə yetirmədiyi halda pulları sizə necə qaytaracağı da qeyd edilməlidir.

Bu müqavilənin bir nüsxəsi sizdə qalmalıdır.

Agentlik sizi işə götürəcək xarici şirkəti tapdıqdan sonra, siz və həmin şirkət arasında müqavilə bağlanılmalıdır.

Müqavilə iki dildə – azərbaycan və sizin gələcəkdə işləməyə gedəcəyiniz ölkənin dilində bağlanılmalıdır.

**Müqaviləni imzalamadan öncə bütün maddələrini oxuyun!**

Müqavilənin bir nüsxəsi sizdə qalmalıdır. Əgər ehtiyac varsa, hüquqşünasdan məsləhət ala bilərsiniz. Müqavilədə aşağıdakı məlumatlar mütləq qeyd edilməlidir:

- İşə götürən şəxsin adı, şirkətin adı və ünvanı.
- İşə götürən şəxsin o ölkədə hüquqi statusu və vəzifəsi.
- Maaşın miqdarı və verilmə şərtləri.
- Müqavilənin başlanması və bitməsi tarixləri.
- İşçinin hüquq və vəzifələri.
- Tibbi sığortanın mövcudluğu.

**Əgər siz, müqavilənin hər hansı bir bəndi ilə razı deyilsinizsə və ya şübhəniz varsa, Müqaviləni imzalamayın!**

**Xaricdə işləmək üçün sizin mütləq iş vizanız olmalıdır!** Getməyə hazırlaşdığınız ölkənin səfirliyinə müraciət edin və oxumaq, işləmək və ya yaşamaq üçün hansı vizanın tələb olunduğunu dəqiqləşdirin. Turist vizası ilə işləmək qadağandır!

Əgər vizanın rəsmiləşdirilməsi prosesinin sizin gələcək maaşınızın hesabına olmasını təklif etsələr, razılaşmayın. Bununla sizi borc tələsinə sala bilərlər!

Səfər üçün gərəkli olan bütün sənədlər sizdə olmalıdır! Səfərinizin təşkilini heç kimə tamamilə etibar etməyin. Sizin iştirakınız vacibdir.

**Pasportunuz hər zaman sizinlə olmalıdır!**

Yaxınlarınıza, qohumlarınıza pasportun, müqavilənin, vizanın və başqa sənədlərinizin sürətini verin və özünüzdə də bunlardan bir nüsxə saxlayın.

Gedəcəyiniz ölkədə Azərbaycan səfirliyinin ünvanını və telefon nömrəsini əvvəlcədən öyrənin.

Getmədən əvvəl gələcək iş yerinizin ünvanını və telefon nömrəsini öyrənin və yaxınlarınıza bu haqda məlumat verin.

**İnsan alveri ilə mübarizə aparan təşkilatların nömrələrini həmişə özünüzdə saxlayın!**

**Mən internetlə tanış olduğum yeni dostumun yanına xaricə qonaq getməyə hazırlaşıram. Biz bir neçə aydır ki, tanışıq. Amma mənə elə gəlir ki, mən onu həyatım boyu tanıyıram. Mən ondan ehtiyat etməliyəmmi?**

İnternetdə sizə “həyat yoldaşı” tapmağa köməklik edəcək çoxsaylı evlənmə agentlikləri və saytlar var. Amma təəssüflər olsun ki, siz tanımadığınız, ancaq telefon və ya internet vasitəsi ilə ünsiyyət qurduğunuz insana heç vaxt tamamilə inana bilməzsiniz. Həmin insanın cinayətkar dəstənin üzvü olmaq ehtimalı çox yüksəkdir. Sizin dostunuz sadəcə, siz onun ölkəsinin sərhəddini keçənə qədər çox mehriban və diqqətli ola bilər. Ehtimal oluna bilər ki, “dostunuz” vasitəçi rolunu yerinə yetirərək, sizi –qurbanı insan alveri ilə məşğul olan dəstəyə təhvil verə bilər.

Sizə belə “dost” lazımdırmı? Ehtiyatlı olun.

*Birləşmiş Millətlər Təşkilatının illik məruzəsinə əsasən, hər beş insan alveri qurbanından biri yetkinlik yaşına çatmayan gənclərdir. Insan alveri qurbanlarının sayının artmasına əsaslanaraq, bir çox ölkədə insan alveri ilə məşğul olan insanların cinayət məsuliyyətinə cəlb edilməsi üçün normativ hüquqi aktlar qəbul edilmişdir.*

## Azərbaycan Respublikası tərəfindən ratifikasiya olunmuş Beynəlxalq Konvensiyalar

1. Birləşmiş Millətlər Təşkilatının Transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyası ( Ali Məclisin 2000-ci il 15 noyabr tarixli, 55/25 saylı Qətnaməsi ilə qəbul edilmişdir.)

2. Birləşmiş Millətlər Təşkilatının Transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyasının, onu tamamlayan, "İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında" Protokol (Ali Məclisin 2000-ci il 15 noyabr tarixli, 55/25 saylı Qətnaməsi ilə qəbul edilmişdir)

3. «İnsan alverinə və fahişəliyin üçüncü şəxslər tərəfindən istismarına qarşı mübarizə haqqında» Konvensiya (1949-cu il 2 dekabr tarixli qəbul edilmişdir). (Azərbaycan Respublikası bu Konvensiyanı 1996-cı il 31 may tarixli, 102-IQ nömrəli Qanuna əsasən ratifikasiya etmişdir)

4. Avropa Şurasının «İnsan alverinə qarşı mübarizə haqqında» Konvensiyası (Azərbaycan Respublikası bu Konvensiyanı 2010-cu il 11 may tarixli, 1002-IIIQ nömrəli Qanuna əsasən ratifikasiya etmişdir)

5. «Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlər arasında insan alverinə, insan orqanları və toxumalarının qanunsuz ticarətinə qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında» Saziş (Azərbaycan Respublikası bu Sazişi 2006-cı il 23 may tarixli, 114-IIIQ nömrəli Qanuna əsasən ratifikasiya etmişdir)

6. «İnsan alverinə və fahişəliyin üçüncü şəxslər tərəfindən istismarına qarşı mübarizə haqqında» Konvensiyanın Yekun Protokolu (Azərbaycan Respublikası bu Konvensiyanı 2004-cü il 12 oktyabr tarixli, 769-IIQ nömrəli Qanuna əsasən ratifikasiya etmişdir)

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsi

Azərbaycan Respublikasının Cinayət Məcəlləsi (Məcəllə Azərbaycan Respublikasının 30 dekabr 1999-cu il tarixli 787-IQ nömrəli Qanunu ilə təsdiq edilmişdir)

## Azərbaycan Respublikasının Qanunları

1. «İnsan alverinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Prezidenti 28 iyun 2005-ci il № 958-İİQ)

2. «İnsan alverinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar, Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Prezidenti 30 dekabr 2005-ci il № 51-IIQD)

## Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamları

1. Azərbaycan Respublikasının "İnsan alverinə qarşı mübarizə üzrə Milli Fəaliyyət Planının (2009 — 2013-cü illər) təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6 fevral tarixli,133 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.)

2. "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı (Bakı şəhəri, 4 avqust 2005-ci il № 272)

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarları

1. «İnsan alveri cinayəti qurbanlarının insan alverinə qarşı mübarizə üzrə xüsusi polis qurumuna təhvil verilməsi Qaydaları» (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 1 fevral tarixli, 21 nömrəli qərarı ilə təsdiq edilmişdir)

2. «İnsan alveri qurbanlarının müəyyən edilməsi Qaydaları (indikatorları)»nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 3 sentyabr tarixli, 131 nomrəli qərarı ilə təsdiq edilmisdir)

3. «İnsan alveri qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizmi Qaydaları»nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 11 avqust tarixli, 123 nömrəli qərarı ilə təsdiq edilmişdir)

4. İnsan alveri qurbanlarına kömək Fondu haqqında Əsasnamə»nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 12 yanvar tarixli, 8 nömrəli qərarı ilə təsdiq edilmişdir)

5. «İnsan alveri qurbanlarının sosial reabilitasiyasının həyata keçirilməsi Qaydaları»nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 6 mart tarixli, 62 nömrəli qərarı ilə təsdiq edilmişdir)

6. «İnsan alverindən zərər çəkmiş şəxslərə re-inteqrasiya dövründə ödənilən müavinatın məbləğinin müəyyən edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 17 iyun tarixli, 152 nömrəli qərarı ilə təsdiq edilmişdir)

7. «İnsan alverinin qurbanı olmuş uşaqların sığınacaqda yerləşdirilməsi və saxlanılması Qaydaları»nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 19 noyabr tarixli, 180 nömrəli qərarı ilə təsdiq edilmişdir)

8. «İnsan alverindən zərər çəkmiş şəxslərə re-inteqrasiya dövründə ödənilən müavinatın məbləğinin müəyyən edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 17 iyun tarixli, 152 nömrəli qərarına əlavə və dəyişikliklər edilməsi barədə (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 27 may tarixli, 99 nömrəli qərarı ilə təsdiq edilmişdir)

9. "İnsan alveri qurbanları üçün xüsusi müəssisələrin yaradılması, maliyyələşdirilməsi, fəaliyyəti, habelə onların fəaliyyətinə nəzarət Qaydaları" (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 9 noyabr tarixli, 203 nömrəli qərarı ilə təsdiq edilmişdir)